HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

30 aprel 2016-cı il

№008 (22)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## TBİLİSİ VƏ İSTANBUL QARDAŞLAŞMIŞ ŞƏHƏRLƏR OLDU

Tbilisi və İstanbul bələdiyyə başçılarının imzaladıqları memoranduma əsasən Gürcüstan paytaxtı və Türkiyənin böyük şəhəri qardaşlaşmış şəhərlər olublar. Bu barədə Tbilisi şəhər bələdiyyəsinin başçısı David Narmaniya aprelin 19-da bəyan edib.

Sənəd Türkiyədə Narimaniya və İstanbulun bələdiyyə başçısı Qədir Topbaş tərəfindən imzalanıb. Memorandum şəhərlərin investisiya, turizm, mədəniyyət sahəsində əməkdaşlığını nəzərdə tutur. İmzalanan memorandum çərçivəsində İstanbul Tbilisiyə beş avtobus hədiyyə edib.

”Bir çox məsələlər üzrə əməkdaşlıq edəcəyik. İlk növbədə bu investisiya mühiti, turizmin inkişafı məsələləridir ki, şəhərlərimizdə




daha əlverişli şərait yaradılsın, mədəni tədbirlər həyata keçirilsin və s. İstanbulun təcrübəsi bizim üçün bələdiyyə nəqliyyatının idarə olunması nöqteyi-nəzərindən və mədəni irsi qorumaqla şəhərin yeniləşdirilməsi baxımından maraqlıdır”, – Narimaniya jurnalistlərə açıqlamasında bildirib.

## GÜRCÜSTAN PREZİDENTİ PARİSDƏ “QƏDİM GÜRCÜSTAN” SƏRGİSİNƏ BAŞ ÇƏKİB



Gürcüstan prezidenti Georgi Marqvelaşvili və ölkənin birinci xanımı Maka Çiçua Parisin qədim məhəlləsində yerləşən “Sen-Jermen Auditoriyası”ında təşkil edilmiş “Qədim Gürcüstan” sərgisinə baş çəkib. Sərgidə fransız səyyahlarının Gürcüstanda çəkdikləri fotoşəkillər geniş ictimaiyyətə ilk dəfə təqdim olunub.

Marqvelaşvili və Çiçua gürcü diasporu nümayəndələrinin ifa etdikləri xalq mahnı və rəqslərindən ibarət konsertin məşqlərində də iştirak ediblər.

Parisdə “Gürcü axşamı” “Lazi” gürcü mədəniyyət ocağı” tərəfindən təşkil olunmuşdur. Assosiasiya Fransada gürcü mədəniyyətini tanıtmaq məqsədilə 2009-cu ildə təsis edilib.

## CƏNUBİ QAFQAZDA TURİZM İNKİŞAFDADIR



Azərbaycan və Gürcüstan Britaniyanın The Telegraph qəzetinin versiyası üzrə turizmi inkişafda olan ölkələrin onluğuna düşüb. ÜDM-da turizmin ən sürətli inkişaf payının qeydə alındığı on ölkənin siyahısında Gürcüstan beşinci, Azərbaycan isə doqquzuncu olub.

Cənubi Qafqaz ölkələrinə turistlərin axını dinamik şəkildə artmaqdadır. Turizm və Səyahətlər üzrə Ümumdünya Şurasının məlumatlarına görə, yalnız ilk üç ay ərzində Gürcüstana gələn xarici turistlərin sayı 1,1 milyondan çox olmuş, ölkənin ÜDM-da turizmin payı artaraq 19,4% olmuşdur.

2015-ci ildə dövlət büdcəsində bu sahədən gələn gəlirlər də artaraq, 1,9 milyard dollardan artıq olmuşdur. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 148 milyon dollar çoxdur.

2016-cı ilin birinci rübündə Gürcüstana gələn vətəndaşlarının sayına görə Azərbaycan, Türkiyə və Ermənistandan sonra Rusiya dördüncü olmuşdur. May bayramları planlaşdırılarkən, rusiyalı turistlərin böyük hissəsi Türkiyə kurortlarına alternativ kimi Gürcüstanı, Azərbaycanı və Ermənistanı seçirlər. Müxtəlif məlumatlara görə, bu istiqamətlərin populyarlığı 16-86% civarında artıb.

## KVİRİKAŞVİLİ QARABAĞLA BAĞLI DANIŞIQLARI GÜRCÜSTANDA KEÇİRMƏYİ TƏKLİF ETDİ



Gürcüstanın baş naziri Georgi Kvirikaşvili bəyan edib ki, Gürcüstan hakimiyyəti Dağlıq Qarabağda sülhün qorunmasının region üçün nə qədər vacib olmasını dərk edir.

Baş nazir bu barədə Strasburqa səfəri zamanı jurnalistlərin suallarını cavablandırarkən danışıb.

Kvirikaşvili Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənəcəyinə ümid etdiyini vurğulayıb. Baş nazir münaqişə edən tərəflərə sülh danışıqlarını Gürcüstanda keçirməyi təklif edib.

“Dağlıq Qarabağ münaqişəsi kəskinləşən kimi mən bir neçə bəyanat verdim və münaqişənin sülh yolu ilə tənzimlənəsini dəstəklədim. Biz maraqlıyıq ki, Qafqazda sülh olsun. Bu münaqişə bütün regionun təhlükəsizliyinə mənfi təsir göstərə bilər. Ona görə də biz Dağlıq Qarabağda sülhün qorunmasının nə dərəcədə vacib olmasını anlayırıq. Bunun üçün biz Gürcüstanı sülh danışıqlarının keçirilməsi məkanı kimi təklif edə bilərik. Sevinirik ki, son vaxtlar Dağlıq Qarabağda vəziyyətin sakitləşməsi əlamətləri müşahidə edilir. Güman edirik ki, bu münaqişə sülh yolu ilə tənzimlənəcək”, – Georgi Kvirikaşvili bəyan edib.

## GÜRCÜSTANIN YAY KURORTLARINA İKİMƏRTƏBƏLİ QATARLAR GEDƏCƏK




“Gürcüstan dəmir yolu” xoş bir yenilik təklif edir. 2016-cı ilin yay-payız mövsümündən etibarən sərnişinlərin StadlerKiss qatarlarında səyahət etmək imkanı olacaq.

İsveçrənin Stadler Bussnang AG şirkətinin ikimərtəbəli qatarları sərnişinləri rahat şəkildə Qara dənizə aparacaq. Dörd yeni qatar lazım olan bütün vasitələrlə, o cümlədən də Avropanın təhlükəsizlik standartlarına tam cavab verən təhlükəsizlik sistemləri ilə təmin olunacaq. Bu qatarlar sağlamlığı məhdud olan şəxslərin ehtiyaclarını da qarşılayacaq.

İkimərtəbəli qatar Tbilisidən Qara dəniz kurortlarına dayanmadan birbaşa gedəcək. Qatar yalnız kurort zonasındakı Ureki, Kabuleti, Batumi stansiyalarında dayanacaq.

“Sərnişinlərin StadlerKiss elektrik qatarlarında daşınması yeni mərhələdir və “Gürcüstan dəmir yolu”nun xidmətlərinin inkişafında irəliyə doğru atılmış addımdır”, – şirkətdən bildirilib.

İNSAN BAZARLIQ ƏMTƏƏDİRMİ? 2

DAĞLIQ QARABAĞDAKI SON HADİSƏLƏRİN GÖRÜNƏN VƏ GÖRÜNMƏYƏN CİZGİLƏRİ 3

LETARGİYADA ERMƏNİ LATAYIRLARI 4

PUL PROBLEMİ FONUNDA TƏHSİLDƏN QAÇIŞ 5

KREDİTLƏRƏ ALUDƏÇİLİYİN YARATDIĞI PSİXOLOJİ BAĞLILIQ 6

“MƏNİM QƏLBİM TƏMİZDİR” DEYƏNLƏRLƏ SÖHBƏT 7

HƏMKARLARIMIZ “GÜRCÜSTANIN ƏMƏKDAR JURNALİSTİ” ADINA LAYİQ GÖRÜLDÜLƏR 8

# İNSAN BAZARLIQ ƏMTƏƏDİRMİ?

**Bu dünyada az qala hər şeyi – acını-şirini, daşı-torpağı, gülü-çiçəyi, çayı-çörəyi – gözümüz görən hər nə var əmtəə kimi bazara çıxarıb sata bilərsən. Suyu da, havanı da sataıb mənfəət əldə edənlər yox deyil. İnsanın içindən qaynayan sərvət ehtirası bu anda mənim yadıma düşməyən neçə-neçə zadı bazara çıxarmaqdan yana əldən-ayaqdan gedir. Əlinə bir şey keçməyən biçarə əl qatır özünə. Başlayır bir ucdan özünü satmağa. Hərçənd ki, bu məqamda gərək kişinin bir damcı da olsa fəhmi, fərasəti ola, özünü dəyər-dəyməzinə satmaya. Bu özünü satmaq məsələsi bir qədər qəliz anlayış olduğundan vacibdir ki, mən bir qədər sözü fırladam. Yoxsa qulluğunuza ərz etdiyim mövzunu bir qara qəpiklik edib, zayını çıxararam. Nədən ki, insan adlı canlını uca yaradan bütün dünyanın əşrəfi olaraq xəlq edib və bu məntiqdən çıxış etsək, onda insan deyilən gərək bazarda ən yüksək qiymətə satıla. Baxaq görək, insanımızın bazar qiyməti neçəyədir, ucuzdurmu, bahadırmı?**

Mövzumuzun obrazının bütöv alınması xatirinə burada bir məqama diqqət yetirmənizi rica edəcəm. Yəqin mənə qədər də az-çox bələd olanınız var ki, insanın özünü satması maddi-mənəvi meyarlarla bağlıdır və burada sözün məcazi və həqiqi mənaları da dövriyyəyə daxil edilməlidir. Yoxsa mövzumuz alayarımçıqlığı, çeynənmişliyi, çiyliyi ilə məni utandırar və biri də "canım, bilmədiyin zaddan niyə danışırsan?" qınağını çırpar düz sifətimə və mən də qızarıb-bozarıb bir kəlmə cavab qaytara bilmərəm. Bunları deyib, rahatlandıqdan sonra kamali-ədəblə mövzumuzun üzərinə qayıda biləcəyimi düşünürəm və oxucumun məni anlayışla qarşılayacağı ümidilə az qala kəlləmayallaq aşmaq istəyirəm.

İndi görək insanımız özünü necə və neçəyə satır. Oradan başlayım ki, binayi-qədimdən bəşər oğlu ruzisini zəhmətlə qazanıb. Deyək ki, heç bir sərvətə sahib olmayan birisi nəyini sata bilər? Yalnız enerjisini, gücünü-qüvvəsini. Kiminsə işini görər, müqabilində də əhli-əyalını sevindirəcək nəsə alar. Bu kateqoriyadan olanları əlinin zəhməti ilə yaşayanlar və ya fiziki əmək sahəsində çalışanlar adlandırmaq olar. Bu qəbildən olanları fəhlə də adlandırmaq mümkündür, kəndli də. Bir qism də gözünün ağını-qarasını töküb, qafasını çalışdırıb, yəni zehni əməklə məşğul olub nəsə qazanır. Bu insanlarımıza müəllim də deyə bilərik, ziyalı da, bir az dəbə uyğun gəlsin deyə intelligent də. Bilirəm ki, bura qədər söylədiklərim hamıya bəlli olan gerçəklərdir. Vay o gündən ki, əməkçi insanımız zəhmət çəkməyə iş yeri tapmaya, vay o gündən ki, ziyalımız qayğıların əlində əsir-yesir qala. Bax, onda ölünü qoyub, dirini ağlamalı olursan.

Bir də baxır, insan özünü hansı bazarda satır. Yerli bazarda sən qəpik-quruş edirsənsə, gərək özünə xarici bazar tapasan, satılanda da bir şeyə, məsələn, valyutaya satıla biləsən. Əski dönəmlərdə insanın alınıb, satılmasında ayıb bir şey görülmədiyindən qul bazarları olurdu və bu qul bazarlarında insanlar irdələnib satılırdı. Kimiyə baha qiymət qoyulurdu, kimiyə də ucuz. Dünya artıq bu mərhələni keçmiş sayılır. Hərçənd ki, orda-burda hələ insan alveri getdiyini eşitmişik. Kiminsə kimisə satdığından, baqaja qoymasından da xəbərdarıq. Bu satmaq, o satmaqdan olmayıb, mənəvi bir zada bağlıdır. Bu məsələni qoyaq bir kənara. Nədən ki, bizim mövzumuzla bir elə bağlılığı yoxdur, mövzumuz insanın özünü bazara çıxarması ilə ilgilidir.

Hərdən eşidirik kimsə bədənini satmaqla, daha doğrusu "qədim peşə" ilə məşğuldur. Bunu eşidəndə deyirik: "Cəhənnəmə satsın, gora satsın. Can onun, cəhənnəm Tanrının". Sözarası deyim ki, bu alverin də daxili-xarici bazarı var. Mövzumuzun bu qisminin xüsusi araşdırmaya ehtiyacı olduğunu söyləməklə kifayətlənməyi doğru hesab edirəm və bu barədə ələşdirmələrə uyğun zamana qədər girişməməyi qətiləşdirirəm. Bir orasını deyim ki, podiuma çıxıb bədəninin ora-burasını göstərməklə bir ətək pul qazananlar da var.

Və mövzunun bala-bala ağız-burununu bir yerə yığmaq məqamının yaxınlaşdığını hiss edib, tələsik toparlanmağı da düşünürəm. Son dönəmlərdə tez-tez öz bədənini hissə-hissə satışa çıxaranlar barədə qulağımıza dəyən xəbərlərin nə qədər dəhşətli bir hal olmasını vurğulamaq istəyirəm. Bəli, səhv anlamadınız, bədən üzvlərini hissə-hissə satanlar. Qanını satan adamlar haqqında bilirdik. Donorların qana ehtiyacı olan xəstələrə yüz-ikiyüz qram qan satdıqlarından xəbərimiz var idi. Satılmış qanın yerini sonra doldurmaq mümkündür. Ancaq öldürülmüş doğmasının qanını satmaqla, tarixdə "qanpulu" deyilən adətlə öz qanını satmaq arasında yerlə göy qədər fərq olduğunu da xahiş edirəm yaddan çıxarmayın. Əcnəbilərin, elə qardaş türklərin qəza nəticəsində artıq sağalacağına heç bir ümid qalmayan doğmalarının orqanlarını xəstə insanlara bağışlamaları, həmin xəstələrə yeni həyat bəxş etmələri barədə də azacıq da olsa məlumatımız var. İnanıram ki, çoxlarımız bunu xeyirxahlıq kimi, savab kimi dəyərləndiririk. Bu məqamda insan orqanları ticarətilə məşğul olanları da unutmamalıyıq.

**Özün öz əlinlə bədəninin bir üzvünü bir doğmana bağışlayırsan, onu həyatda tutmağa çalışırsan. Bu da alqışlanmalı bir haldır. Amma, borc üzündən, kreditini ödəyə bilməmə səbəbindən və ya uşağın üçün nəsə etməkdən yana daxili orqanlarından birini və ya bir hissəsini satmaq niyyətinə düşürsən, bunun artıq insani faciə olmasını heç kim inkar edə bilməz. Sonuncu ümid kimi yaradanın sənə əmanət etdiyi bədənin bir hissəsini satmaq nə dərəcədə doğrudur? İşin ən bəd tərəfi böyük ümidlə bazara çıxarmaq istədiyin orqanın yararsız olması və ya müştərisinin tapılmamasıdır. Qorxuram bir vaxt gələ, Avropadan gətirilən köhnə maşınları qol-bud edib satdığımız kimi, bədənimizin üzvlərini – qol-qıç, ağız-burun, göz-qaş – nəyimiz var satıb borclara verək.**

Afiq MUXTAROGLU

# II KOSALI İSLAM MƏDRƏSƏSİNDƏ "HƏZRƏTİ PEYĞƏMBƏR VƏ İSLAM VƏHDƏTİ" ADLI SEMİNAR KEÇİRİLİB



Aprelin 30-da Hz. Məhəmməd (s.ə.s)-in doğum günü münasibəti ilə II Kosalı İslam mədrəsəsində Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının və Bütün Gürcüstan Müsəlmanlar İdarəsinin birgə təşkil etdiyi "Həzrəti peyğəmbər və islam vəhdəti" adli seminar keçirilib. Mədrəsənin müəllimi Vasif Cəfərov mərasimə toplaşanlara tədbirin məramı barədə qısa məlumat verdikdən sonra sözü Bakı Dövlət İslam Universitetinin Zaqatala şöbəsinin müəllimi Laçın Quliyevə verdi. L. Quliyevin Qurani Kərimdən oxuduğu ayələrdən sonra proqram açıq elan edildi.

Vasif Cəfərov qonaqlara həzrət peyğəmbərin həyatı haqqında qısa məlumat verdikdən sonra, kürsüyə Bütün Gürcüstan Müsəlmanları İdarəsinin müftisi hacı Yasın Əliyevi dəvət etdi.

Daha sonra Bütün Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi hacı Ramın İgidov, Gürcüstan parlamentinin deputatı Mahir Dərziyev, Marneuli bələdiyyəsinin başçısı Nəbi Abdullayev, Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının sədri Musa Hacıyev, Bakı Dövlət İslam Universitetinin Zaqatala şöbəsinin müəllimi Vuqar Səmədov bu günlə bağlı ürək sözlərini dilə gətirdilər.

Tədbirin sonunda II Kosalı İslam Mədrəsəsinin müdürü Natiq Əliyev tədbir iştirakçılarının hər birinə təşəkkürünü bildirdi.

Tədbirdə Peyğəmbərə həsr olunmuş şeirlər və ilahilər də səsləndirildi.

# ALMANİYA, AZƏRBAYCAN, RUSİYA, BÖYÜK BRİTANİYA VƏ ABŞ CHECK İN GEORGİA TƏDBİRLƏRİNƏ BİLET ALMAQ ÜZRƏ LİDERDİR




Check in Georgia dövlət proqramı çərçivəsində dünya ulduzlarının konsertlərinə alınan biletlərin sayına görə Almaniya, Azərbaycan, Rusiya, Böyük Britaniya və ABŞ ilk beşlikdədir.

Gürcüstanın mədəniyyət naziri Mixail Giorqadzenin bildirdiyinə görə, aprelin 23-ə olan məlumatlara əsasən 52 ölkədən bu konsertlərə bilet alanlar olub.

"Artıq 52 ölkədən biletlər alınıb. Bilet satışı üzrə ilk beşliyə Almaniya, Azərbaycan, Rusiya, Böyük Britaniya və ABŞ daxildir. Hətta ən uzaq ölkələrdən də, məsələn, Perudan bilet alıblar. İnanıram ki, bu layihə çərçivəsində ölkəmizə lap çox adam gələcək və həmvətənlərimiz bir çox mədəni tədbirin şahidi olmaq imkanı qazanacaq, belə ki, bu tədbirlərdə yüksək səviyyəli ulduzlar iştirak edəcəklər", – Giorqadze bəyan edib.

Xatırladaq ki, aprelin 24-də Tbilisidə Eros Ramazottinin konserti olub. Layihə çərçivəsində həmçinin Robbi Uilyams, Maroon 5, Xose Karrerasın konsertlərinin keçirilməsi planlaşdırılır.

# BURÇULADZE QARDABANİDƏ ÖZ FONDUNUN OFİSİNİ AÇDI

"Gürcüstanın inkişafı fondu"nun lideri Paata Burçuladze Qardabanidə öz təşkilatının öfisinin açılışında bəyan edib ki, xalq gələcəyə inamını itirib, onun çox böyük problemləri var.

Fondun nümayəndələri yerli sakinlərlə görüşərək, onları "Gürcüstanın inkişafı fondu"nun məqsəd və vəzifələri ilə tanış etmiş, cəmiyyəti narahat edən problemləri birlikdə həll etməyi təklif etmişlər.

"Xalqın gələcəyə inamı yoxdur, onun çox böyük problemləri var. Mən şadam, adamlar bizim fondumuzda birləşirlər, onların həyatlarını düzəltmək üçün bizim böyük planlarımız var, nə qədər ki, adamlar "Gürcüstanın inkişafı fondu" ilə birlikdə olacaqlar, biz bunu mütləq edəcəyik", – Paata Burçuladze bildirib.

# GÜRCÜ MÜƏLLİMƏ İMTAHANI DAYANDIRARAQ "QARABAĞ AZƏRBAYCANINDIR" AKSİYASINA QOŞULDU



Aprelin 23- də Gürcüstanda Avropa Texniki Universitetinin Hüqüq və Beynəlxalq Əlaqələr fakültəsinin 2-ci kurs tələbəsi jurnalist Könül Quliyeva gürcü dili imtahanı zamanı müəllimədən 10 dəqiqəlik fasilə elan etməsini və "Demokratik Cəmiyyətin İnkişafına Yardım" İcimai Birliyinin başlatdığı "Qarabağ Azərbaycanındır" aksiyasına qoşulmağı təklif edib. Bu barədə zim.az saytı məlumat yayıb.

Gürcü müəllimə Elena Kavtuaşvili tələbəsinin sözünü yerə salmayaraq imtahanda iştirak edən tələbələrlə birlikdə aksiyanın könüllüləri sıralarına qoşulub.

E.Kavtuaşvili aksiyanın şüarını ingilis və gürcü dillərində lövhəyə yazaraq, Azərbaycan,türk və gürcü bayraqlarının da şəkillərini çəkib, aksiyanı böyük maraqla qarşıladığını bildirib.

Həmçinin universitetdə təhsil alan digər gürcü tələbələr də, könüllü olaraq aksiyaya qatılıblar.

## GÜRCÜSTAN MƏSHƏTİ TÜRKLƏRİNİN REPATRİASİYASI ÜZRƏ ÖHDƏLİKLƏRİ YERİNƏ YETİRİB

VMH-ın liderlərindən biri olan David Bakradze Strasburqda jurnalistlərə bəyan edib ki, Gürcüstan müsəlman məshətilərin repatriasiyası üzrə öhdəlikləri tamamilə yerinə yetirib. Bakradze bunu Türkiyənin baş naziri Əhməd Davudoğlunun bəyanatına cavab olaraq səsləndirib.

"Biz Gürcüstana qayıtmaq istəyən hər kəsə qeydiyyat imkanı vermişik. Bundan əlavə, mən parlament sədri olarkən, biz qeydiyyatın müddətini iki dəfə uzatmışıq. O zaman biz türk dostlarımızla dəqiq razılaşmışdıq ki, uzadılmış müddətdə onlar qeydiyyatdan keçməsələr, onlar qayıtmaq arzusunda olmayanlar hesab ediləcəklər. Qeydiyyatdan 6000 minə yaxın adam keçib, biz onları Gürcüstanda gözləyirik. Ona görə də, haradasa Gürcüstanın qəbul etmədiyi yüz minlərlə adam var söhbəti düzgün deyil. Bu öhdəlik yerinə yetirilib", – David Bakradze qeyd edib.

Avropa Şurası parlament assambleyasının sessiyasında çıxışı zamanı Türkiyənin baş naziri Əhməd Davudoğlu bəyan edib ki, Türkiyə Gürcüstandan 1999-cu il razılaşmasına əsasən "məshəti türkləri"nin repatriasiyası haqqında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyi gözləyir.

"Artıq qeyd etdiyim kimi, Gürcüstan 1999-cu ildə məshəti türklərinin vətənə qayıtması haqqında öhdəlik götürüb, biz bu kontekstdə hadisələrin inkişafını izləyirik. Ümid edirik ki, bu adamların repatriasiyası Avropa Şurasının üzvü kimi Gürcüstanın fəaliyyət planında prioritetlərdən biri kimi əks olunacaq", – Türkiyənin baş naziri bəyan edib.

## 2017-Cİ İLDƏN GÜRCÜSTAN ORDUSUNDA MƏCBURİ XİDMƏT OLMAYACAQ



2017-ci ildən Gürcüstan ordusunda məcburi xidmət olmayacaq . Bu barədə müdafiə naziri Tina Xidaşeli Gürcüstan ictimai televizyasına müsahibəsində bildirib. Onun sözlərinə görə, artıq müdafiə nazirliyində qərar qəbul olunub, indi qanunvericilik dəstəyi tələb olunur.

"Bizdə artıq 2017-ci ildən orduya məcburi çağırış olmayacaq. Müdafiə naziri kimi mənim qərarım belədir. Əgər bu idarəyə başqa rəhbər gələrsə, təbii ki, o, başqa qərar qəbul edə bilər", – Xidaşeli bildirib.

Onun fikrinə əsasən, gələn il Gürcüstanın müdafiə nazirliyi ölkənin Silahlı Qüvvələrinə könüllü çağırış sisteminə keçəcək. O, qeyd edib ki, belə sistem NATO-ya üzv olan dövlətlərin çoxunda fəaliyyət göstərir və bu sistem çox səmərəlidir.

## GÜRCÜSTAN MƏTBUAT AZADLIĞINA GÖRƏ REGİONDA ƏN YAXŞI MÖVQEDƏDİR

Freedom House-un qiymətləndirməsinə görə, Qafqaz regionunda Gürcüstan yeganə dövlətdir ki, orada qismən mətubat azadlığı mövcuddur.

Freedom House beynəlxalq hüquq müdafiəsi təşkilatının araşdırmaları əsasında tərtib olunmuş 2016-cı ilin mətbuat azadlığı indeksinə əsasən, Gürcüstan 100 ballıq cədvəl üzrə 49 bal toplayıb. 100 bal ən pis göstərici hesab olunur.

Freedom House Gürcüstanda mövcud olan hüquqi durumu 13, siyasi vəziyyəti 20, iqtisadi şəraiti isə 16 balla qiymətləndirib.

Gürcüstanın qonşularından Rusiya 83, Ermənistan isə 63 bal toplayaraq, indeksin mətbuatı azad olmayan ölkələri sırasına düşüb.

## KAFE, RESTORAN VƏ BARLARDA SİQARET ÇƏKMƏK TAMAMİLƏ QADAĞAN OLUNA BİLƏR

Əgər əmək, səhiyyə və sosial müdafiə nazirliyinin tənzimləməsi fəaliyyət göstərsə ictimai yerlərdə siqaret çəkmək tamamilə qadağan olunacaq.

Yeni qayda demək olar ki, 100 məsələ üzrə dəqiqləşmə tələb edir.

"Tütünə nəzarət alyansı"nın nümayəndəsi Temur Alasaniya bu sahədə nəzərdə tutulan düzəlişlərə müsbət yanaşır.

"İctimai yerlərdə tütün tüstüsünün yığılması nöqteyi-nəzərindən yaranmış fəlakətli durumu qaydaya salmaq üçün siqaret çəkməyi tamamilə qadağan etmək gərəkdir. Biz bu qanunvericiliyin yaradılmasını və onun yerinə yetirilmə mexanizminin tətbiq olunmasını çoxdan gözləyirik", – Temur Alasaniya bildirib.

"Tütünə nəzarət alyansı"nın sədri Georgi Baxturidzenin məlumatına görə, Gürcüstanda əhalinin 40%-i siqaret çəkəndir. Bunun 60%-i kişilər, 15%-i isə qadınlardır, siqaret çəkənlərin sayına görə, ölkəmiz Avropada birincidir.

## DAĞLIQ QARABAĞDAKI SON HADİSƏLƏRİN GÖRÜNƏN VƏ GÖRÜNMƏYƏN CİZGİLƏRİ

**Son günlərdə Dağlıq Qarabağda baş vermiş hərbi əməliyyatlardan sonra regiondakı vəziyyət gərgin olaraq qalmaqdadır. Azərbaycan Ordusunun qısa müddət ərzində əldə etdiyi hərbi uğurla heç cür barışa bilməyən Ermənistan onsuz da çətin vəziyyətini bir qədər də qəlizləşdirməkdədir. Münaqişənin həllində kilid açarı kimi təklif olunmuş "Kazan" prinsipindən qəti olaraq imtina edən İrəvan birtərəfli olaraq danışıqlar prossesini dayandırdığı haqda rəsmi aşıqlama vermişdir. Bu isə problemin həllində ermənilərin tutduğu qeyri-konstruktiv mövqeyin bariz nümunəsidir. Digər tərəfdən ATƏT-in Minsk qrupu da "Kazan" variantını münaqişə tərəflərinə təklif edilən ən optimal variant hesab edir.**

Hal-hazırda danışıqlar prossesinin rəsmi səviyyədə çox gizli aparılması və onun detallarının mətbuata sızdırılmamasına baxmayaraq, hadisələrin indiki durumu və sonrakı axarı haqqında müəyyən versiyalar söyləmək mümkündür. İlk öncə Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Moskvanın baş aktyor olduğu heç kimə sirr deyil. Son dövrlərdə Qərb tərəfindən siyasi arenanın küncünə sıxışdırılan Kremlin özünün maraq dairələrinə daxil olan regionlarda ümumi vəziyyəti təftiş etmək niyyətində olduğu müşahidə olunur. Dördgünlük hərbi əməliyyatlar zamanı Rusiyanın Ermənistana İrəvanın umduğu qədər dəstək verməməsi bunu deməyə əsas verir. Hazırki vəziyyətdə Moskva Cənubi Qafqaz coğrafiyasında ən etibarlı müttəfiqi olan tək Ermənistanla kifayətlənmək niyyətində deyil.

Azəbaycanın artan iqtisadi nüfuzu, eyni zamanda onu siyasi arenanın aktiv fiquruna çevirməkdədir. Rusiyanın enerji qaynaqlarından asılılığını azaltmaq niyyətində olan Qərb bu istiqamətdə iqtisadi aksenti Bakıya yönəltməkdədir. Azərbaycan qazının Türkiyə və Avropaya nəqlini nəzərdə tutan TANAP layihəsinin gerçəkləşdirilməsi deyilənlərə əyani sübutdur. Qərbin bu addımlarının qarşısını almaq və bölgəni öz təsir dairəsində saxlamaq üçün Rusiyanın qabaqlayıcı tədbirlər planı cızması şübhə doğurmur. Ona görə də Rusiya Azərbaycanla olan münasibətlərində etibarlı tərəfdaş obrazı yaratmaq üçün rəsmi İrəvana təzyiqlərini artırmaqdadır.

Son günlərdə Moskva-İrəvan arasında diplomatik rabitənin intensivləşməsi, Ermənistan rəhbərliyi ilə aparılan danışıqların əsas mövzusunu işğal olunmuş ərazilərin bir qisminin – Dağlıq Qarabağa bitişik 5 rayonun Kazan danışıqlarının şərtlərinə uyğun olaraq azad olunması təşkil etdiyini güman etmək olar. İkinci bir tərəfdən hal-hazırda Ermənistanda hökm sürən kollaps vəziyyətini nəzərə alan İrəvan bu durumda Moskvanın təkliflərini qəbul etməkdə acizlik nümayiş etdirir. Çünki, işğalçı ölkədə hakimiyyət və Rusiya əleyhinə baş qaldırmış etiraz dalğalarını nəzərə alan Sarkisyan öz əli ilə öz boynundakı ipi çəkmək niyyətində deyil. Əksinə, epizodik də olsa döyüş əməliyyatlarını bərpa etməklə hərbi revanşı Bakının əlindən geri almaq istəyir. Ona görə də gələn ilin aprel ayında keçirilməsi nəzərdə tutulan parlament seçkilərində fiaskoya uğramaq istəməyən Ermənistan rəhbərliyi Rusiyaya dirəniş göstərməkdə israrlıdır.

**Xatırladaq ki, 6 dekabr 2015-ci ildə Ermənistan konstitusiyaya dəyişiklik etməklə parlament üsul-idarəsinə keçmişdir. Həm hərbi, həm də diplomatik müstəvidə hadisələrin gedişatında üstünlüyü ələ alan Azərbaycanın bundan sonra atacağı addım da mühüm əhəmiyyət kəsb etməkdədir. Danışıqlar prossesində rus qoşunlarının sülhməramlı tənzimləyici qismində münaqişə bölgəsində yerləşdirilməsi məsələsinin müzakirə olunması da mətbuatda səslənməkdədir. Belə bir təkliflə Bakının razılaşması qəbul edilməz sayılmalıdır. Çünki, tarix boyu ermənilərin başını tumarlayan Rusiyanın gələcəkdə Azərbaycanın ziyanına işləyəcək addımlar atacağı istisna edilməməlidir.**

Sahib MUSTAFA

## "SƏRHƏDSİZ REPORTYORLAR" TƏŞKİLATININ HESABATI NƏŞR OLUNUB

"Sərhədsiz reportyorlar" təşklatı özünün aprelin 20-də dərc olunmuş illik hesabatında "təbliğatın yeni erası" fonunda postsovet məkanında mətbuat azadlığının tədricən məhdudlaşdırıldığını bəyan edib. Avtoritar rejimlərə malik olan bir çox dövlətlərdə mətbuata təzyiqlər güclənsə də, son illərdə Rusiyanın ən pis göstəricisi 2016-cı ildədir. Bu göstərici ilə o, "Ümumdünya mətbuat azadlığı indeksi"ndə 148-ci yeri tutub.

Ümumilikdə 180 ölkədəki vəziyyət təhlil olunub. Təhlillər göstərir ki, xəbərlərin müstəqil işıqlandırılması təhlükədədir.

REPORTERS SANS FRONTIERES POUR LA LIBERTE DE LA PRESSE

Bundan əlavə "Sərhədsiz reportyorlar" təşkilatı qeyd edir ki, "bütün dünyada "oliqarxlar" KİV-i satın alır və onlara qarşı əlavə təzyiq göstərirlər".

Freedom House hüquq müdafiə təşkilatı isə 2014-cü ildən bəri Kremlin apardığı informasiya müharibəsinə diqqət yönəldir. "Krım yarımadasının Rusiya tərəfindən işğalı və Rusiyanın Ukraynanın şərqindəki münaqişədə iştirakı Rusiya KİV-də təbliğat xarakterli xəbərlərin artması və əks fikir bildirilməsinin məhdudlaşdırılmasına səbəb olub", – təşkilatın 2015-ci ilə dair hesabatında deyilir.

## GÜRCÜSTAN ƏHALİSİNİN ÜMUMİ SİYAHIYA ALINMASININ NƏTİCƏLƏRİ AÇIQLANDI

Ümumi siyayıya almanın göstəricilərinə görə, Gürcüstan əhalisinin sayı 3 703 804 nəfər olub. Bu, 2002-ci ildə keçirilmiş siyahıya almanın nəticələri ilə müqayisədə 15% azdır.

Şəhər əhalisi 2 122 623 nəfər, kənd əhalisi isə 1 591 181 nəfərdir.

Gürcüstan əhalisinin 86,6%-ini gürcülər, 6,3%-ini azərbaycanlılar, 4,5%-ini isə ermənilər təşkil edir.

Gürcüstan Milli statistika xidmətinin 2014-cü ildə keçirdiyi əhalinin ümumi siyahıya alınmasının yekunlarına əsasən, ölkədə yaşayan ilk 10 ən çoxsaylı xalq ümumi əhalinin 99%-ini təşkil edir.

Gürcüstanın 10 ən çoxsaylı xalqının sayı belədir: gürcülər 3 224 600, azərbaycanlılar 233 000, ermənilər 168 100, ruslar 26 500, osetinlər 14 400, yezidlər 12 200, ukraynalılar 6000, kistinlər 5 700, yunanlar 5 500, asuriyalılar 2 400, digərləri 14 300.

Əhalinin ümumi siyahıya alınması 2014-cü ilin 5 noyabrından 19 noyabrınadək həyata keçirilib.

Siyahıya alma ölkənin 82% ərazisini əhatə edib. Abxaziya və Cənubi Osetiyada siyahıya alma keçirilməyib.

# LETARGİYADA ERMƏNİ LATAYIRLARI

*(KONTRAST)*

**Yevgeni Reyn öz "Şifrovka"sında yarıörtülü və yarıhəzin belə yazır:**

...а я отвечу вам
фонариком на Морзе...

Di gəl ki, bu yerdə – Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın nə şifrlərlə, nə Morze əlifbasında, nə də nabəgah namələrlə danışmaq heç cür mümkün olmur (baxmayaraq ki, Koelyo öz "Kimyagər"ində bunu bacarmışdı). Bu yerdə gərək batilin haqqa necə hiylәgərliklə, necə tülkülüklə qarışdığını açıq-aydın göstərə biləsən: axı qədim dövrlərdən üzü bəriyə "mis dirhəmin gümüş üzlüklə bəzədildiyi"nə tarix az şahidlik etməyib.

Beləliklə...

Rusiya Federasiyasına məxsus İctimai televiziyada (ОРТ) "Zaman göstərəcək" ("Время покажет") adlı veriliş də yer alır. İki nəfər aparıcısından biri qadın (Yekaterina Strijenova) olduğu üçün bu bir nəfərlə qətiyyən işim yoxdur. İkinci aparıcı Pyotr (Petya) Tolstoydur ki, onun da vaxtilə Şuşa şəhərinin general-qubernatoru olmuş və milli zəmində qırğınlar zamanı təxribat törədərək fitnəkarlıq etmiş Qoloşapova qohumluğu çatır; yəni demək istədiklərim də arazbarı bu üzdəndir.

Unudulmaz Mirzə Cəlil Məmmədquluzadə düz yüz on il bundan əvvəl (1906) yazırdı: "Ey yari-bivəfa Qoloşapov! Bu imiş məgər dostluğun şəraiti?.. heç bilirsənmi ki, kimi qırırsan, kimin evlərini topa tutursan, kimin məhəlləsinə od vurub yandırırsan?

Aradan düz yüz on il keçməsinə rəğmən, qohumu Qoloşapovun əlindən "qalan işlər"i televiziyada oxşar minvalla davam etdirən Pyotr Tolstoy haqqında bunu da demək istəyirəm ki, familiyasının Tolstoy olmasına baxmayaraq, onun unudulmaz yazıçılardan nə Lev Tolstoya, nə Aleksey Tolstoya, nə də Tatyana Tolstayaya heç bir qohumluq telləri yoxdur; əvəzində məhz Qoloşapova (və mırt-mırt Martunova) qohum olduğu bizdə bir tel boyda da olsun təəssüf doğurmur. Biz – yəni Mirzə Qələm də, mən də qayimməqam qələm adamları olaraq Lev Tolstoya (həmçinin Hacı Murada və Anton Pavloviç Çexova da) daha çox qohumuq, nəinki "propaqanda" Pyotr Tolstoy. Bu bir. İkincisi, ASALA və PKK terrorçularının "türklərdən qisas almaq üçün" Qarabağa gəlişini alqışlayan Pyotr peyharey elə danışır ki, elə bil qohumu Qoloşapov Şuşada letargiyadan yenicə ayılıb. Sən demə, Pyotrun öz monoloq-tiradasında tez-tez dreyfə yatmağı da elə bu üzdən imiş...

Bu letargiya – bu uzunsürən yuxuya bənzəyən patoloji hal ki, var ha, bax bu haldan müasir Qoloşapov-Pyotr Tolstoy misallı klakerlər sanki, ancaq yanğınla ayıla bilirlər, həm də yata bilirlər. Xatirinizdə varsa, unudulmaz Valentin Rasputinin bir "Yanğın" ("Пожар") povesti var. Bax, həmin povestdəki yarıalmatək oxşar misallı, yanğını törədənlər də Petyalardır. Yəni Ukraynadakı, Abxaziyadakı, Dağıstandakı, Qarabağdakı, Suriyadakı yanğınlar qədər onlara zövq verən qeyri bir əlamət yoxdur.

Pyotr Tolstoya görə, "Zaman göstərəcək" əslində "Rusiya göstərəcək" anlamını daşıyır. Amma o və onun yaxın qohumları unudurlar ki, Rusiya ilə Azərbaycan arasına, Rusiya ilə Gürcüstan arasına hər nə qədər nifaq toxumu səpirlərsə səpsinlər, ədalət mütləq zəfər çalacaq. Çünki Rusiyada da, Azərbaycanda da, Gürcüstanda da haqqı batilin başına çırpa biləcək iqtidarında olan adamlar çoxdur.

Pyotr Tolstoy öz verilişində illərdir ki, bir yaramaz metoddan heç cür əl çəkmək istəmir: belə ki, onun "arena"sının bir tərəfində uzaqbaşı üç nəfər "günahkar" azlıq olur, o biri tərəfində isə azı otuz nəfər "günahsız" çoxluq. Və bu çoxluq azlığa sözünü sona çatdırmağa heç cür imkan vermir. Belə çıxır ki, Azərbaycanın Qarabağda bircə dənə də cavab gülləsi atmağa haqqı yoxdur. Bu yerdə Qoqol demiş, ay səni durak!..

Pyotr Tolstoy nədənsə bunu da unudur ki, bu hər şey axan, hər şey dəyişən dünyada nə Rusiya əvvəlki Rusiyadır, nə Azərbaycan, nə də Gürcüstan... yəni daha Qoloşapovların zamanı deyil. Letargiyanın da müalicəsində irəliləyişlər çoxdur..

Qaranlıq qalan bir də budur ki, bu mahiyyətlər və təzahürlər, təsadüflər və zərurətlər dünyasında Pyotr Tolstoyun nitqində-replikalarında bu qədər latayır haralardandır?

Latayır demiş...

İndi Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın yüzillik yubileyini bayram etdiyimiz Aşıq Hüseyn Saraclı tez-tez "lateer danışma", "lateerdə yeddi kotanınız əkməsin" deyirdi.

"Hərzə", "nalayiq", "biədəb" mənalarını verən "latayır" ustad aşığın dilində bəni-adamın riyakarlığını dərhal müəyyən edən güclü nitq etiketi idi. Əgər adamın latayırda məkr və hiylə dolu yeddi kotanı əkirsə, adam batili haqq kimi göstərirsə, onda sənin şeytanın şərindən amanda qalmaq çarənin faizi çox-çox aşağı düşür; üstəlik, çox vaxt Yaradanın lütfünə sığınmaq yolundan qeyri yolun da qalmır!

***P.S.***

Əgər Ermənistanda bir çox qüvvələr hələ də letargiyadan ayıla bilməyibsə və bununla bahəm hələ də Azərbaycanın ünvanına limhəlim latayırlardan heç cür əl çəkmirsə, üstəlik, Pyotr Tolstoy misallı muzdlu klakerlər onlara dil verirsə, mənim nə günahım ki, müasir təbabət heyvanların letargiya yuxusunu – məsələn, ayıların qış yuxusunu – daha yaxşı öyrənib, nəinki insanların?.. Burası da var ki, vaxtilə bu qəbil yatan adamları ölmüş bilib elə diri-diri basdırırdılar; unudulmaz Qoqolu məhz belə bir tale izləmişdi. Amma Qoqol ömür boyu rəhmət ala bilməmişdi: elə bizim unudulmaz Mirzə Cəlildən də...

Məncə, bütün hallarda Pyotr Tolstoyu qospitaldan tez buraxıblar. Sonra Rusiya üçün problem çıxmasın haa! Məndən deməkdir!..

İBRAHİMXƏLİL

# ƏRDOĞAN: BMT-NİN TƏHLÜKƏSİZLİK ŞURASINDA MÜSƏLMAN ÖLKƏLƏR NİYƏ YOXDUR?



"Dünya Birinci dünya müharibəsi dövründəki dünya deyil".

Müsəlmanların narahatlıqlarının səbəbi qərarların qəbul olunması və onların gerçəkləşdirilməsində iştirakın ədalətsizliyindədir. Misal üçün, BMT-nin Təhlükəsizlik Şurasının daimi beş üzvü arasında planetimizin əhalisinin dörddə birini təşkil edən müsəlmanların heç olmasa bir nümayəndəsi varmı? Yox.

"Anadolu" agentliyinin məlumatına görə, bu barədə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan edib.

"Əgər BMT-nin Təhlükəsizlik Şurasının beş üzvündən biri veto hüququndan istifadə edərsə, məsələ həll edilməz. Mən yenə bəyan edirəm, bizim dünyamız beşdən artıqdır. Dünya Birinci dünya müharibəsi dövründəki dünya deyil. Şərtlər dəyişib. Madam ki, belədir BMT TŞ-nın islahatı lazımdır. Əgər biz ədalətli dünya istəyiriksə, islahatları gözləmək bizim hüququmuzdur", – prezident bildirib.

Onun sözlərinə görə, tərəfkeşlik prinsiplərinə əsaslanan sistem qlobal ədalətin təmin olunmasına öz töhfəsini verə bilməz.

"Biz bunu əyani şəkildə görürük və qarşılaşdığımız bütün problemlərdə də görəcəyik. Mən növbəti dəfə BMT-ni bütün dünya əhalisinin coğrafi və dini bölünməsini diqqətə almağa çağırıram", – Ərdoğan bəyan edib.

# DÜNYADA HƏRBİ XƏRCLƏR 1,7 TRİLYON DOLLAR OLUB

2015-ci ildə dünya üzrə hərbi xərclər 1 faiz artaraq 1,7 trilyon dollar olub.

Bu barədə Dünya Problemlərini Araşdırma üzrə Stokholm İnstitutunun (SIPRI) hesabatında deyilir.

Siyahıya ABŞ başçılıq edir. Bu ölkənin 2015-ci ildə hərbi xərcləri 589 milyard dollar təşkil edib. İkinci yeri 215 milyard dollar xərclə Çin tutur. Səudiyyə Ərəbistanı 87,2 milyard dollar göstərici ilə 3-cü, Rusiya isə 66,4 milyard dollar göstərici ilə 4-cüdür.

Azərbaycanın 2015-ci ildə hərbi xərcləri 3 milyard dollar təşkil edib. Bu rəqəmin 2006-ci ilə nisbətən 165 faiz artdığı bildirilir.

Ermənistanın hərbi xərcləri isə 2015-ci ildə 447 milyon dollar təşkil edib. Bu rəqəm 2014-cü illə müqayisədə 7,7 faiz artıqdır.

Gürcüstanın hərbi xərcləri 2015-ci ildə 742 milyon lari təşkil edib ki, bu da 2008-ci ildəkindən 54% azdır. 2008-ci ildə Gürcüstanın hərbi xərcləri 1996-cı ildən bəri ən yüksək həddə, 1 milyard 625 milyon lariyə çatmışdı. Bu sahədə ən aşağı göstərici 37,2 milyon lari olmaqla 2000-ci ildə qeydə alınıb.

Hesabat 170 ölkənin məlumatları əsasında hazırlanıb.

# 330 MİNDƏN ÇOX RUSİYA VƏTƏNDAŞI ABŞ-A KÖÇMƏK İSTƏYİR

RİA "Novosti"nin yaydığı məlumata görə, ABŞ-ın Rusiyadakı səfirliyinin mətbuat katibi Uilyam Stivens bəyan edib ki, 2016-cı ildə qrin-kart lotereyasında iştirak etmək üçün 330 mindən çox Rusiya vətəndaşı ərizə verib. Bu, 2015-ci ildəkindən 24% çoxdur.

"Bu il 330 mindən çox rusiyalı Green Card lotereyasında iştirak etmək üçün müraciət edib. Müqayisə üçün deyək ki, ötən il 268 min müraciət qeydə alınmışdı", – Stivens deyib.

Qeyd olunur ki, ABŞ-a hər il müxtəlif dövlət proqramları ilə 500 min leqal mühacir qəbul olunur. Bunlardan biri Diversity Immigrant Visa (DV lotereya) proqramıdır. Bu lotereyada arzulayan hər kəs pulsuz iştirak edə bilər.

Levada mərkəzin bir qədər əvvəl keçirilmiş sorğularında məlumat verilirdi ki, rusiyalıların 70%-ə yaxını ABŞ-a mənfi münasibət bəsləyir, lakin indi Amerikaya köçmək istəyənlərin sayı başqa vaxtlarda olduğundan daha yüksəkdir.

# YAXIN GƏLƏCƏKDƏ ROBOTLAR FERMERLƏRİ ƏVƏZ EDƏCƏK

Yaponiyada yeni texnoloji layihəyə start verilib.

Bloomberg agentliyinin məlumatına görə, təqaüdə çıxan fermerləri tədricən robotlar, pilotsuz kənd təsərrüfatı texnikası və avtomatlaşdırılmış fermalar əvəzləyəcək.

Yaponiyanın kənd təsərrüfatı naziri Hiroşi Daydo artq ölkəsində belə bir layihənin icrasına başlanıldığını bəyan edib. Qeyd olunur ki, G-7 ölkələrinin Niiqata prefekturasındakı nazirlər səviyyəsində görüşündə kənd təsərrüfatında yeni texnologiyaların tətbiqi üzrə proqramın təqdimatı keçirilib. G-7 ölkələrini təmsil edən nazirlər bildiriblər ki, əkin sahələrində daha çox yaşlı insanlar çalışırlar, məsələn, Yaponiyada fermerlərin orta yaş göstəricisi 67-dir.

Xatırladaq ki, Yaponiya robot-fermer layihəsinin gerçəkləşdirilməsi üçün 37 milyon dollar vəsait ayırıb.

# LATVİYA SOVET İŞĞALINDAN 185 MİLYARD AVRO ZİYAN ÇƏKİB

"Delfi" xəbərlər saytının yaydığı məlumata görə, ziyanı hesablayan komissiyanın hesablamalarına əsasən sovet işğalı və ölkənin Sovet İttifaqının tərkibində olması Latviya dövlətinə 185 milyard avro dəyərində ziyan vurub. Komissiyanın nümayəndəsi Ruta Pazderenin sözlərinə görə, demoqrafik itkilər bunu on milyardlarla avro artıra bilər. 2014-cü ildə Pazdere jurnalistlərə bəyan etmişdi ki, sovet işğalının Latviyaya vurduğu ziyanın ümumi məbləği 300 milyard avrodan artıq ola bilər.

Komissiyanın tərkibinə Baş prokurorluğun, hərbi muzeyin, Baltik-Şimal tədqiqat mərkəzinin, Latviya işğalı muzeyinin, işğalı araşdıran cəmiyyətin, iqtisadiyyat, müdafiə, xarici işlər və ətraf mühitin mühafizəsi və regional inkişaf nazirliklərinin nümayəndələri daxildirlər.

2005-2009-cu illərdə fəaliyyət göstərən komissiya, iqtisadi böhranın yaratdığı maliyyə çatışmazlığından fəaliyyətini dayandırmalı olmuşdu. 2013-cü ildə hökumət onun fəaliyyətini yenidən bərpa etməyə qərar verib.

# PUL PROBLEMİ FONUNDA TƏHSİLDƏN QAÇIŞ

**Ali təhsil son illərdə əvvəlki illərlə müqayisədə, dəbə minən, gənclər arasında sıx yayılan hadisədir. Söhbətimizin mövzusunu Gürcüstanda təhsildən salmaq fikrindəyəm. Orta təhsilin təxminən hamı üçün eyni şərtlərdə olması haqqında məlumatlıyıq. Yəni, təhsil əksər bölgələrdə əlçatandır. Heç şübhəsiz ki, problemlər dağ boydadır və danıla bilinməyəcək cinsdəndir. Üstündən ötəri keçmiş olmayaq deyə, bir-ikisini misal naminə də ortaya sərə bilərik.**

Müəllim qıtlığı, daha dəqiq deməli olsaq peşəkar müəllimlərin yaşlanması, müasir təhsil sisteminə ayaq uydura bilməməsi, yeni nəslin isə təhsil sahəsində çalışmaqdan ilan vurmuş kimi qaçması. Əlbəttə, bunlar və bərabərindəki onlarla problemlər artıq bu cümlə ilə sizin də bir daha gözünüz qarşısında canlanmış oldu. Ancaq və lakin digər bir məsələ də ondan ibarətdir ki, oxumaq istəyən üçün Gürcüstanda, yəni vətənimizdə təhsil almaq, təhsilli ola bilmək mümkünsüz deyil. Hətta çətin də deyil. Sadəcə istəmək, bu işi istəmək lazımdır. Ürəkdən istəmək, qazanmağın yarısıdır. Bu uğur da göydən zənbillə enəsi olmadığına görə, digər yarısını da çalışmaqla, bir az canını incitməklə əldə etmək olar. Gəlin qəbul edək ki, bu gün istənilən problemin mövcudluğuna baxmayaraq, ən azından orta məktəb təhsilini hər kəs ala bilər.

Əsas danışmaq niyyətində olduğum məsələ isə təhsil adlanan məfhumun ikinci və həyatda tutarlı olmaq üçün ən vacib mərhələlərindən biri olan ali təhsildir. Yəni övladlarımızın, bacılarımızın, qardaşlarımızın, uzun sözün kəsəsi, gələcəyimizin ali məktəbdə hər hansı ixtisasa yiyələnməsi, işi, savadı və normal düşüncəsi olması, sözünü etdiyim ikinci mərhələdən asılıdır. Sizin ağlınıza gələn, elə bu dəm mənim də ağlımdan keçdi. Bəli, razıyam, eyni düşüncədəyik. Oxumaq, adam olmaq üçün yetərli deyil. Bu məsələnin də tamamlanması üçün ailə tərbiyəsi, qan, gen , mühit xülasə bir sürü zad lazımdır ki, onlar da başqa söhbətin mövzusu olub, bu günkü yazımda müstəsnalıq kimi təqdim edilməklə yetinməlidirlər.

Nə deyirdim, Gürcüstanda ali təhsil. Hər birimiz azçox bilirik ki, Gürcüstanda dövlət universitetlərinin onundan doqquzunda təhsil haqqı elə də fantastik dərəcədə böyük rəqəmlərlə ifadə edilmir. Yəni el dilində desəm at-dəvə ha deyil. Bəli, bu zəmanədə bu pul az da deyil. Hələ sosial-iqtisadi vəziyyətimizi, günü-gündən çətinləşən həyat şərtlərini nəzərə alsaq, əlbəttə ki, bir kəndli ailəsi üçün ildə 2250 lari ödəmək asan olmaya bilər. Amma, asan nə var axı? Asan nə var? On saniyəmizi ayırıb bu həyatdan asan nə tapa biləcəyimizi düşünək, sonra yazımı oxumağa davam edək. Mən tapmadım...

Təhsilin son illərdə dəbə düşdüyünü yuxarıda da söylədim və dəb sözünü heç də təsadüfi olaraq, ya da səslənişindən xoşum gəldiyi üçün ikinci dəfə ortaya atmıram. Təhsil həqiqətən də bir çoxları üçün dəb və bəhanədir. Yaxşı, deyək ki, canı cəhənnəmə nə olur, olsun heç olmasa olsun. Medalın digər tərəfi isə ondan ibarətdir ki, bu haya düşüb, köçə qoşulub oxumaq eşqinə düşənlər yolun yarısına çatmamış, eyni hayla da geriyə qayıdırlar. Bəhanə ondan ibarət olur ki, bu insanların təhsil haqqını, yəni az əvvəl başını sığalladığım 2250 larini ödəmək imkanı olmur. Qeyri-gürcülər üçün yaradılmış imkandan istifadə edərək ali təhsil almaq imkanının qapısını aralayırıq. Burada isə dövlət, adam gərək Allah üçün danışa, bəli, dövlət bizə ikicə ay ciddi çalışıb başımızı yormağımızın müqabilində 5 il pulsuz, qara qəpik ödəmədən təhsil almağı təklif edir. Buna nail ola bilənlər bir az rahatlamış, kürkündən birəni təmizləmiş olurlar. İkincilər isə müxtəlif şirkətlərə üz tutaraq təhsil haqqlarının ödənməsini istəyirlər. Və danmamalıyıq ki , Gürcüstanda fəaliyyət göstərən şirkətlər də illər ərzində xətiri sayılacaq bir məbləği yüzlərlə tələbənin təhsilinə davam etməsi üçün ayırırdı. Daha necə, nə cür , hansı meyarlarla seçimlər olurdu bu onların vicdanına qalmış və mənim mühakimə etməkdən çəkinmək istədiyim məsələdir.

Mənim üçün bu gün bu işin əsas qəhrəmanları təhsil alanlar və onların ailələri maraqlıdır. Konkret olaraq deməli olsam isə, artıq o şirkətlərdən təhsil haqqını ala bilməyən, məbləği ödəməkdə aciz olduğunu bildirən və bu bəhanə ilə (siz daha yumşaq çıxsın deyə səbəb də adlandıra bilərsiniz) yolun yarısından qayıdan tələbələrdir. Son zamanlarda onların sayı artmağa və bu barədə müxtəlif məlumat da yayılmağa başlayıb. Mən onları da, çətinliklərini də, əlbəttə ki, anlayıram. Hamımız anlayırıq, anlamalıyıq, çünki təxminən eyni qazanda qaynamaqla məşğuluq. Ancaq nəzərə almalıyıq ki, biz dövlətə, ya da bizim adımıza təhsil haqqı ödəməyən şirkətlərə küsərək, fors edərək sadəcə uduzarıq. Çünki, birincisi, o şirkətlər bizi övladlığa götürməyib, ikincisi də, onların duzu qurudur. Pulu verməyə səbəb tapdıqları kimi, verməməyə də tapacaqlar. Necə deyərlər onların bir yeri ağrımır. Olan isə sizə və bizə olacaq.

**Qayıdıram oxumaq xərcinə, bu xərcin təhsil haqqından ibarət olmadığının da fərqindəyəm, dəyərli oxucular. Od düşdüyü yeri yandırar, övladı tələbə olan ailələr üçün bu mənzərə tam aydındır. Əlbəttə ki, böyürdən-başdan bir ətək xərc çıxır və valideyn bunu ödəməkdə çətinlik çəkir, çətinlikdən də boyun qaçırır. Uzun danışdım bilirəm ancaq, bunu da yazsam mövzu tama bənzəyəcək. Bu valideynlər, acından günorta dursalar da borca girib, kreditlərə yazılıb oğlu üçün 3 mərtəbə ev ucaldan, qızı üçün 50 minlik cehiz təmin edən, qonşudan borc alıb qızına gedəcəyi bir gecəlik toy üçün 200 larilik don alan, 10 yaşlı uşağın cibinə son model telefon qoymaqla yaxşılıq etdiklərini düşünən valideynlərdir, əziz oxucum...**

Afayət AFİQ

# ROBOTLAR GƏLƏCƏKDƏ DÜNYANI ƏLƏ KEÇİRƏ BİLƏR

**Bu fikrin sahibi müasir dövrün ən məşhur və ən nüfuzlu fizik-nəzəriyyəçilərindən biri olan Stiven Hokinqdir. Texnologiya hər gün, hər saat, hər dəqiqə, biz o qədər fərqinə varmasaq da, sürətlə inkişaf edir. Çox uzağa getməyək. 10 il əvvəlki telefonlarınızı xatırlayın. Qapaqlı, antenalı, iri, kiçik rəngsiz ekran; indi o telefonları ayıb olar deyə heç gəzdirməzsiniz də üstünüzdə. Amma bundan 10-15 il öncə o telefonlara heyranlıqla baxırdıq. Zəng gəlir, mesaj gedir. Bundan böyük nə lüks ola bilər deyə düşünürdük? Ancaq indi sadəcə sırf zəng gəlsin, zəng getsin deyə kim telefon işlədər? Halbuki telefonun əsas özəlliyi zəng gəlib, zəng getməsidir, yəni təcili ünsiyyət qurmaq vasitəsi olmasıdır.**



Keçmişi xatırladıq. Gəlin indi də bir az gələcəyi xəyal edək. Baxın, çox uzağa getmədik. 10 il ərzində nələr dəyişdi, bunu sadəcə adi bir telefondan nümunə göstərdim. Şübhəsiz ki, 10 il sonra da çox şeylər dəyişəcək. 10 il sonra da indiki telefonlarımızı düşünərkən güləcəyik bəlkə də. Ancaq bizlər hələ də texnologiyanın sadəcə bəlli bir qisminə hakimik. Yəni əslində aysberqin bir də görünməyən üzü var. Söhbət robot texnologiyasından gedir. Hansı ki, hər nə qədər ölkəmiz və bizlər üçün uzaq bir texnologiya olsa da, başda Cənubi Koreya, Yaponiya, Çin, Amerika, Almaniya olmaq üzrə dünyanın bir sıra ölkələrində bu sahəyə milyard dollarlar xərclənir. Artıq bəzi işlərdə insanların əvəzinə robotlardan istifadə olunur. Gələcəkdə bir çox iş sahəsində insanlara çox yük düşməyəcək, hətta robotlar işləyəcək, insanlar işsiz qalacaq. İnsanların işsiz qalması dünyada böhrana səbəb ola bilər. Amma bəzi təhlükəli işlərdə insanlar əvəzinə robotların çalışması fikri heç də pis deyil. Bununla belə, ortada problem törədə biləcək bir məsələ də var: süni zəka və onun sürətlə inkişaf etdirilməsi. Stiven Hokinq qeyd edir ki, süni zəka öz-özünü inkişaf etdirməyə davam edə bilər və hətta özünü yenidən təkmilləşdirmək qabiliyyətinə də malik ola bilər. Yəni robotlar insan kimi düşünsə, özlərini dərk etsə və insanlardan asılı olmayaraq qərar vermək qabiliyyətinə malik olsa, bu artıq insanlıq üçün ciddi bir təhlükənin ortaya çıxacağı anlamına gəlir. Robotun nə kimi təhlükəsi ola bilər deyə düşünürsünüzsə, gəlin bu barədə bir neçə örnək verim. İlk olaraq bilməyinizi istərəm ki, süni zəka məhsulu robotlar oyuncaq mağazalarında gördüyünüz adi uşaq robotları kimi deyil. Yəni çox üstün özəlliklərə malikdirlər. Robot istehsal edən şirkətlər gündən-günə robotların özəlliklərini artırmağa davam edir. Bu özəlliklərin kontrolu insanların əlində olduğu müddətcə heç bir problem yaşanmaz. Lakin kontrolun hər zaman insanların əlində olacağının sığortası yoxdur.

Hanson robot şirkətinin istehsal etdiyi Sofiya adlı süni zəka robotu insanlarla ünsiyyət qura bilir, ünsiyyət qurduğu insanları və onlarla nə danışdığını xatırlayır. 62 ədəd mimikaya sahib olan Sofiya səhiyyə, təhsil, müştəri xidmətləri kimi sahələrdə çalışmaq üçün dizayn edilib. İnsanlarla ünsiyyət zamanı söhbətin gedişatına görə gülmək, sevinmək, əsəbləşmək, təəccüblənmək kimi bir çox xüsusiyyətlərə malik olan Sofiya, Hanson robot şirkətinin istehsal etdiyi ilk robot deyil. Sofiyadan öncə istehsal olunan Filip adlı robot daha fərqli bir proqrama malikdir. Bir gün terminatora çevrilsən nə edərsən sualına, "nə vaxtsa terminatora çevrilsəm sizi öldürmərəm. Daha əvvəl tanış olduğum insanları xatırlayaram. Tanıdığım üçün sizi öldürmərəm" – deyə cavab verir. Bəs tanımadığın insanları öldürərsənmi sualına, Filip: - öldürərəm, - cavabını verir. Bənzəri sual robot Sofiyaya da verilir. O, insanları yox edərsənmi sualına, "yox edərəm" – deyə, cavab verir. Bu cavablar robotlara daha əvvəldənmi yüklənib yoxsa robotlar özlərini inkişaf etdirərəkmi bu cür düşünürlər, bilinmir, amma görünən odur ki, gələcək zamanda robotlar ya ən yaxın dostumuz olacaq, ya da ən böyük düşmənimiz. Stiven Hokinqin düşündüklərinə əsasən yazdığım yazımı, elə Stiven Hokinqin bir sözü ilə də yekunlaşdırmaq istəyirəm:

**"Robotlar insanların ən böyük, amma sonuncu ixtirası ola bilər".**

Anar RAFİQOĞLU

# BP-NİN TƏŞKİL ETDİYİ MÜSABİQƏDƏ AZƏRBAYCANLI ŞAGİRD QALİB OLDU



BP Cənubi Qafqaz qaz yatağı sisteminin genişləndirilməsi layihəsinə əsasən çayaltı tunellərin yaradılmasına başlayır. Mikrotunel tikintisi Azərbaycan və Gürcüstanda Kür yatağının altında həyata keçiriləcək.

Aprel ayının 19-da şirkət bu layihənin təqdimatını edib. Bundan əlavə sözügedən qurğunun adının seçilməsi üçün müsabiqə də elan edilib. Təqdimat mərasimində Cənubi Qafqaz qaz yatağı sisteminin genişləndirilməsi layihəsinin meneceri Qrem Marlous, BP şirkətinin Gürcüstandakı baş meneceri Kris Şliter, Qardabani bələdiyyəsinin sədri Qoça Camarauli və başqaları iştirak ediblər.

Müsabiqədə Qardabani bələdiyyəsi Ağtəhlə kənd ictimai məktəbinin 10-cu sinif şagirdi Ellada Əkbərova qalib gəlib və qeyd edilən qurğuya onun seçdiyi "Axreopteriks" adı verilib. Qalib Ellada Əkbərova bu adın qədim yunan dilində, yeraltı dünyaya məxsus canlının xüsusiyyətlərini özündə daşıyan primitiv heyvanın adı olduğunu və məktəbdə qurğunun hazırlanması ilə bağlı videoçarxı izləyərkən, bu adın ona yaraşacağını düşündüyünü bildirib.

Qardabani bələdiyyəsinin sədri Qoça Camarauli isə çıxışında Qardabanidə Ellada kimi uşaqların yaşadığı və oxuduğu üçün fəxr etdiyini vurğulayıb.

# KREDİTLƏRƏ ALUDƏÇİLİYİN YARATDIĞI PSİXOLOJİ BAĞLILIQ

**30-40 il qabaq, bəyənmədiyimiz sovet dönəmində az qala hamımız pulumuzu qoymağa yer gəzirdik. Kiminin bir ətək pulu düzgün saxlanma şəraiti seçilmədiyindən elə evində-eşiyində çürüyürdü, heç nəyə yaramırdı, kimi də yır-yığamatını əmanət kassalarına qoyurdu ki, ağ gündə, qara gündə əlinə gəlsin. Deyək ki, ev almaq, maşın almaq lazım gələndə kimsəyə ağız açmadan öz müşgülünü özün həll edirdin və ya oğul evləndirmək, qız köçürmək məqamı yetişəndə gedirdin banka, yığılmış hesabından bir az çəkib, işini yola verirdin. Məsələ də sənin dağa-daşa düşmənə gərək qalmadan həllini tapırdı.**

De gəl ki, sovetin də murazı gözündə qaldı, sistemi qanı-canı bahasına yaradanların törəmələri onu yerləyeksan etdilər. Əhalinin "saxla samanı, gələr zamanı" deyib, illər boyu topladığı yığamat batdı, getdi. Sovetin dağılmasından dörddə bir əsr keçməsinə baxmayaraq, varı-dövləti sovet banklarında yatanlar, daha doğrusu yananlar dördgözlə həmin əmanətlərin bu və ya digər şəkildə qaytarılacağına ümid edirlər. İllərdir ki, bəziləri bu ümidlə yatıb, qalxırlar.

Hələ bu harasıdır, günümüzün ağı geridə imiş. Nədən ki, dünən ona-buna borc verən, az-çox sabahkı gün üçün ehtiyata malik olan sadə zəhmət adamlarının durumu hazırda dözülməz həddə çatıb. Kimə rast gəlirsən hansısa bankdan kredit götürdüyünü və aldığını



qaytara bilmək iqtidarında olmadığını söyləyir. Bəzən zəngin hesab etdiyin, əslində cibində quşlar cikkildəşən tanışını da bankda görüb, rahatlıq tapırsan ki, şükür bankın kredit yolunu təkcə kasıblar yox, həm də zəngin hesab etdiklərimiz də tanıyırmış. Ətrafındakı, çevrəndəki dost-tanışların cibindən görünüşcə birbirindən gözəl 4-5 ədəd kredit kartının çıxdığını görəndə az-çox əndişən çəkilib gedir, bir qırıq da olsa dinclik tapırsan. Düşünürsən ki, sən tək deyilsənmiş, sən dərdli minlərlə insan varmış. Deyirəm indi də, ümumi fikirlərimizə bir azacıq dinclik verib, faktları danışdıraq ki, bizi araqatanlıqda, təhrikçilikdə günahlandırmasınlar.

Əlahəzrət faktlar bizə ölkəmizin yetkinlik yaşına çatmış əhalisinin nə az, nə çox düz 85%-nin müxtəlif maliyyə qurumları qarşısında borclu olduğunu, hər üç nəfərdən birinin kredit kartına sahib olduğunu söyləyir. Kredit kart sahiblərinin bu qədər çoxluğuna baxmayaraq, ona malik olmaq istəyənlərin sayı günü-gündən artır. Yenə faktların söylədiklərinə qulaq asaq: 2015-ci ilin mayında ölkəmizdə 648 979 kredit kartı var idisə, 2016-cı ilin aprelində onların sayı artıq 753 407-yə çatıb. Bu kartlara sahib olmaq niyyətinə düşənlər bəri başdan itirəcəklərini, hətta bu kart zəhrimara yiyə durduqdan sonra hansısa bir zibilə düşəcəklərini və oradan çıxmağın az qala mümkünsüzlüyünü anlamamış deyillər, sadəcə çarəsizlikdən bu yolu seçməli olurlar. Orasını da deməyimizdə fayda var ki, bankların telefon vasitəsilə göndərdikləri cəlbedici mesajlar da, kredit kartlarının sayının çoxalmasında az rol oynamır. Telefonu olanların hamsı bunu xorla təsdiq edərlər.Bütün bunlara təcili bir əncam çəkilməsə insanımızın durumunun necə olacağını indidən təxmin etmək olar. Bankların kredit kartlarını yalnız 20-64 yaş arası insanlara verdiklərini nəzərə alsaq, məlum olar ki, niyə kartların sayı hələ milyonu keçməyib.

Guya insanlara canıyananlıq edən banklar demək olar ki, eyni xidmətlər təklif edirlər. Sənə verilən kredit kartlarına güzəştli ödəmə dövrü nəzərdə tutulur. Adına açılmış hesabdan pul çıxardıqda bunun üçün bank sənin hesabından öz xeyrinə 3-4% saxlayır. Güzəşt dövrü 55 gün müəyyən olunur. Illik vergi tarifi 18-36% faiz təşkil edir, bir qədər dərindən araşdırdıqda bunun 50%-ə qədər olduğunu da üzərə çıxarmaq mümkündür. Müştəri borcunu qrafik üzrə ödəmədikdə illik faiz 200%-dək qalxa bilər. Bax, burada deyiblər , indi sən gəl, koru körpüdən keçir.

**Bəla heç bunda da deyil. Kreditlərlə, kredit kartları ilə işləyən təkcə bizim məmləkət deyil ki? Dünyanın əksər ölkələrində bu xidmətlərdən yararlanırlar. Bəla burasındadır ki, kreditlərə aludəçilik, kreditlərlə yaşayışını təmin etmək istəyi insan psixolojisinin pozulmasına gətirib çıxarır. Gecə yatanda, səhər oyananda kredit borclarını necə ödəyəcəyi barədə düşünən insanın ruhi-psixoloji durumunu göz önündə canlandırmaq o qədər də çətin deyil. Kreditlər hesabına yaşayan insanın əliayağı hər şeydən soyuyur, onda kreditdən asılılıq sindromları müşahidə olunmağa başlayır, işləyərək haradansa ailəsinə ruzi çıxarmağı düşünmək əvəzinə, gedib bankdan pul götürərəm, sonra da birtəhər ödəyərəm düşüncəsi formalaşır. Və bu durum artıq onda maniya, bağlılıq yaradır. Bunun da bir xəstəlik olduğunu artıq bu sahənin mütəxəssisləri qulağımıza pıçıldamaqdadırlar və bunu kredit narkomaniyasi da adlandirirlar. Əslində pıçıltı ilə deyilənləri, bir qədər sonra biz həyacan təbili ilə ifadə etməli olacağıq. Çarəsi indidən tapılmalıdır.**

A. M. DƏLİVƏLOĞLU

# KUTAİSİ VƏ POTİDƏ ÜÇ TOXUCULUQ FABRİKİ AÇILACAQ

İlin sonunadək Kutaisi və Poti şəhərlərində Avropaya ixracı nəzərdə tutulan paltarlar istehsal edəcək üç toxuculuq fabriki açılacaq.

"Beynəlxalq sərmayəçilər assosiasiyası"nın rəhbəri Osman Çalışkanın məlumatına görə, fabriklər xammalı Türkiyədən alıb paltar tikəcəklər.

Fabrik Potidə tikiləcək və orada 3 min nəfər işlə təmin olunacaq. Ümumilikdə fabrikə 3 milyon dollar sərmayə qoyulub. Tikinti seçkilərədək başa çatdırılacaq.

Kutaisidə isə sərmayəçi icarəyə götürülmüş ərazidə iki fabrik açacaq, bu fabriklərdə isə 600-dək adam çalışacaq. Şirkətlərdən biri təsis olunub, təxminən 2 aydan sonra işləyəcək. İkinci şirkət isə özünə uyğun ərazi axtarır.

Osman Çalışkan bəyan edib ki, fabriklər dərhal fəaliyyətə başlamayacaq. Belə ki, şirkətlər ilk üç ay ərzində əməkdaşlarının yenidən hazırlanması ilə məşğul olacaq, bundan sonra istehsal prosesinə başlanacaq.

# TBİLİSİ AEROPRTU ŞƏRQİ AVROPANIN ƏN YAXŞI AEROPORTLARINDAN BİRİDİR



Tbilisi aeroportu üçüncü dəfə Kölndə keçirilən Skytrax World Airport Awards 2016 reytinqində Şərqi Avropanın ən yaxşı aeroportlarından biri hesab edilib.

Sorğuya əsasən 2016-cı ildə Şərqi Avropanın ən yaxşı on aeroportu sırasına Budapeşt, Kiyev, Tallin, Riqa, Bratislava, Belqrad, Tbilisi, Sofiya, Tirana və Skopye aeroportları daxil edilib.

"2015-ci ildə Tbilisi beynəlxalq aeroportu 1,8 milyon sərnişinə xidmət edib. Məhz sərnişinlərin sorğusunun nəticələrinə görə, o, Şərqi Avropanın ən yaxşı aeroportlarından biri hesab edilib. Biz şadıq ki, TAV Georgia-yanın idarəçiliyində Tbilisi beynəlxalq aeroportu sərnişinlərin etibarına əsasən üçüncü dəfədir ardıcıl olaraq Şərqi Avropanın ən yaxşılarından biri titulunu qazanır", – TAV Georgia-nın baş meneceri Mete Erkal bəyan edib.

Skytrax Britanyanın nüfuzlu şirkətidir. O, dünyanın 550 aeroportunun 13 milyondan artıq sərnişinin qiymətləndirməsinə əsaslanır. Tbilisi beynəlxalq aeroportu 2010-cu ildə Dubayda keçmiş MDB ölkələri arasında "Ən yaxşı inkişaf edən aeroport" mükafatı, 2011-ci ildə yenə də Dubayda "Keçmiş MDB ölkələri arasında ən yaxşı aeroport" titulu qazanıb.

2011-ci ildə Tbilisi beynəlxalq aeroportu Golden Brand 2011-in "İctimai nəqliyyat və xidmət" nominasiyasının qalibi olub. 2013-cü ildə The Routes Airport Marketing Awards tərəfindən isə "Marketinq sahəsində ən yaxşı aeroport" adlandırılıb.

2014-2015-ci illərdə Skytrax World Airport Awards tərəfindən Şərqi Avropanın ən yaxşı aeroportlarından biri adlandırılıb.

# GÜRCÜSTANDA YENİ AEROPORT AÇILIB

Telavidə Gürcüstan dövlət aviasiya universitetinin "Mimino" aeroportu açılıb. Aeroporta iqamətgahı XVIII əsrdən Telavidə yerləşən çar İkinci İraklininin adı verilsə də, əməkdaşlar Georgi Daneliyanın eyni adlı filmi "Mimino"nun adı ilə adlandırıblar.

Filmdə baş rolu, Mimino ləqəbli təyyarəçi rolunu aktyor və müğənni Vaxtanq Kikabidze oynamışdır.

Aeroportun cəmi altı təyyarə və helikopteri olsa da, Telavidən hələlik müntəzəm reyslər müəyyən olunmayıb. Aeroportun əməkdaşları Gürcüstan ərazisində, eləcə də xarici ölkələrdə Piper Seneca tipli altıyerlik təyyarələrlə çarter reysləri təşkil etməyə hazırdırlar.

Aeroportda aviasiya universitetinin tələbələri uçuş hazırlıqları keçəcəklər. Bundan başqa Telavi aeroportundan turistlər üçün aviogəzintilər təşkil etmək mümkün olacaq. Məlumat verilir ki, bir saatlıq uçuşun təxmini qiyməti 150 dollara yaxın olacaq.

# TURİSTLƏR GÜRCÜSTAN KAZİNOLARINDA HƏR İL 1,7 MİLYARD DOLLAR XƏRCLƏYİRLƏR

Smile-Expo şirkətinin məlumatında bildirilir ki, turistlər hər il Gürcüstan kazinolarında 1,7 milyard dollar xərcləyirlər.

Smile-Expo Gürcüstanda və MDB ölkələrində oyun konfransları keçirmək üzrə ixtisaslaşıb.

"Gürcüstanı liberal qanunvericilik, sadələşdirilmiş sənədləşmə, çevik vergi sistemi və korrupsiyanın olmaması fərqləndirir. Türkiyə, Rusiya və digər qonşu ölkələrdən gələn turistlər hər il burada 1,7 milyard dollar xərcləyirlər", – məlumatda qeyd olunur.

Şirkətdə bildiriblər ki, Gürcüstan əcnəbi operatorlar və biznesin yeni istiqamətləri üçün açıq ölkədir.

Müqayisə üçün deyək ki, Gürcüstan keçən il turizmdən 1 milyard 935 milyon dollar qazanaıb.

# GÜRCÜSTANIN ÜMUMİ XARİCİ BORCU 15 MİLYARD DOLLAR OLUB

Milli bankın məlumatında bildirilib ki, 2015-ci ilin 31 dekabrına olan vəziyyətə görə, Gürcüstanın ümumi xarici borcu 15 milyard dollar təşkil edib.

Ümumi borca həm dövlət (hökumət strukturları, dövlət müəssisələri, Milli bank), həm də xüsusi bankların, şirkətlərin borcları daxildir.

MB-ın məlumatına görə, dövlət xarici borcları 6 milyard dollar təşkil edib, bu da ÜDM-un 43%-ini təşkil edir. Bu məbləğin 4,4 milyard dolları hökumət strukturlarının, 219 milyon dolları Milli bankın, 650 milyon dolları dövlət şirkətlərinin istiqraz və kreditlərinin payına düşür.

Bank sektorunun borcları 2,9 milyard, digər sahələrinki 4,4 milyard , şirkətlərarası borclar 3 milyard dollardır.

## TBİLİSİDƏ İSLAM PEYĞƏMBƏRİNİN MÖVLUD BAYRAMI KEÇİRİLİB



Bütün Gürcüstan Müsəlmanları İdarəsinin və Türkiyə Diyanət Başkanlığının Gürcüstan nümayəndəliyinin təşkilatçılığı ilə Tbilisidə Hz. Məhəmməd Peyğəmbərin (s) miladi təqvimi ilə mübarək 1445-ci mövludu münasibəti ilə bayram tədbiri keçirilib.

Tədbiri giriş sözü ilə açan aparıcı Oktay İsayev sonra sözü Quran tilavət etmək üçün Hacı Natiq Əliyev verib. Daha sonra BGMİ-nin Şərqi Gürcüstan müftisi Hacı Yasin Əliyev, Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Hacı Ramin İgidov, Qərbi Gürcüstan üzrə müfti Beqlar Kamaşidze, Türkiyənin Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Zəki Ləvənt Gümrükçü, Türkiyə Diyanət İşləri Başkanlığının Gürcüstan üzrə keçmiş nümayəndəsi Hacı Ahmed Erdem, Türkiyə səfirliyinin din müşaviri Hacı Nəbi Gümüş və başqaları çıxış edərək, Allahın rəsulu, Peyğəmbərlərin xatəmi Hz. Məhəmmədin (s) həyat tərzindən, onun insanlığa verdiyi örnəklərdən və mesajlardan söhbət açıblar. Onun ümməti hesab olunan müsəlmanların Hz. Məhəmmədin (s) həyatını düzgün öyrənib tanıtmalarının, sözü, özü, əməli düz şəkildə təmsil etmələrinin vacibliyindən danışıblar.

Çıxış edənlər son zamanlar İslamın fitnə ilə qarşılaşdığı və İslam coğrafiyasında ürəkağrıdan hadisələrin yaşandığı bir zamanda müsəlmanların tək ümmət olub tövhid ətrafında vəhdət təşkil edərək, daha da birləşmələrinin önəmindən danışıblar.

İlahilərlə bitən bayram tədbirindən sonra iştirakçılar bayram süfrəsi ətrafında təəssüratlarını bölüşüblər.

## ACARISTANDA MÜSƏLMANLAR ETİRAZ YÜRÜŞÜ KEÇİRİBLƏR




"Küçədə ibadət etmək yetər, biz yeni məscid tələb edirik!". Acarıstanın müsəlman əhalisi aprelin 15-də bu şüarla Batumidə "Orta Came"dən hökumət evinədək dinc yürüş keçirib. Acarıstanın müsəlman icmasının nümayəndələri yeni məscid tikintisi üçün torpaq ayrılmasını tələb ediblər.

Gürcüstan Müsəlmanlar İttifaqının sədri Tariel Nakaidzenin sözlərinə görə, onların hüquqları pozulur. Dindarlar yeni məscid və Kabuletidə pansion tələb edirlər. "Əlbəttə, bizə indi yalnız bir məscid lazımdır. Əgər gələcəkdə lazım olsa biz ikincini də, üçüncünü də, onuncunu da tikəcəyik", – Nakaidze deyib.

Batumidə müsəlmanların ibadət etməsi üçün əlavə yer ayrılmasının vacibliyi barədə bir neçə aydır fəal müzakirələr gedir. Acarıstan müsəlmanları bildiriblər ki, yerin olmaması ucbatından küçədə ibadət edirlər.

Gürcüstanın xalq hüquq müdafiəçisi Uça Nanuaşvili hadisəyə öz münasibətini bildirib. Acarıstan müsəlmanlarının tələblərini şərh edən ombudsmen onların fikirlərinə şərik olub və qeyd edib ki, problem mütləq həllni tapmalıdır və bu hökumətin vəzifəsidir.

Yeni məscid tikintisi ilə əlaqədar Acarıstan hökumətinin rəhbəri də fikrini bildirib. Arçil Xabadzenin sözlərinə görə, bu məsələ ilə şəxsən özü maraqlanır və Dini işlər üzrə Dövlət Agentliyi ilə fəal məsləhətləşmələr aparılır.

Yürüş iştirakçıları tələbləri yerinə yetirilməyəcəyi təqdirdə daha böyük tədbir keçirməyi nəzərdə tutduqlarını bəyan ediblər.

## "MƏNİM QƏLBİM TƏMİZDİR" DEYƏNLƏRLƏ SÖHBƏT

**Son zamanlar "Mənim qəlbim təmizdir" kimi bir ifadədən sıx-sıx istifadə edənlər var. Bu üzdən bu mövzu haqda yazmaq istəyirəm.**

Bəzi insanlar ürək təmizliyini yalnız insanlar haqqında bir pislik düşünməmək, yaxud köməksevər olmaq kimi çox sadə mənada anlayırlar. Bununla da qalmayıb insanlara yaxşı davranmaqla, ALLAHa ibadət vəzifəsindən xilas olduqlarını zənn edirlər. Bu şeytanın bir vəsvəsəsi, nəfsin bir oyunudur. Bunlar namaz qılan, ibadət edən bir möminin gündəlik həyatında İslamın ruhuna tərs düşən və digər insanlara zərər verən bəzi nöqtələr təsbit edirlər. Bunları qarşıya qoyur və "bu adam namaz qılır, amma bu səhvləri də işləyir,mən isə onun düşdüyü səhvlərə düşmürəm" deyərək öz ibadətsizliklərinə, onun qüsurlarında bir üzr qapısı tapmağa çalışırlar.

Peyğəmbər Əfəndimiz (s.ə.s) bir hədisi şərifdə buyurur: "Bir günah işləndiyi zaman ürəkdə bir qara ləkə əmələ gəlir. Əgər sahibi peşman olar tövbə istiğfar edərsə ürək yenə parlayar". Bu hədisi şərifdən təmiz və səlim ürəyin, ancaq günahlardan səlim olan və üsyanlarla qaralmamış bir qəlb ola biləcəyini öyrənirik.

Şuara Surəsinin 89-cu ayəsində cənnətə girəcək olanların "Ancaq Allaha səlim (təmiz) bir ürək ilə gələnlər. .." olduğu bildirilir. Ancaq Quranda bildirilən ürək təmizliyi, cəmiyyətimizin anladığı kimi bir təmizlik deyil. "Ürək təmizliyi"nin əhəmiyyətindən yola çıxaraq, "mən insanlara heç pislik etmirəm, kasıblara kömək edirəm, bu üzdən də Allahın istədiyi əxlaqdayam" demək, öz özünü aldatmaqdan başqa bir şey deyil. Çünki Qurana görə ürəyin təmiz olması Allaha yönəlmək və Ona itaət etmək deməkdir.

Bəlkə bəzi insanlar, arada-sırada kasıblara kömək edərək, heyvanlara yemək verərək, qonşularına gülümsəyərək"yaxşı insan" kimi tanına bilərlər. Ancaq cəhənnəmdən qurtulmanın, Allahın razılığını və rəhmətini qazanmanın yolu "yaxşı insan"kimi tanınmaq deyil, Allahın Quranda təsvir etdiyi şəkildə bir mömin olmaqdır. Bu əxlaqı qazanmadan edilən "yaxşılıq" Allah qatında dəyər qazanmaya bilər.

Üzlərinizi şərqə və qərbə çevirməniz yaxşılıq deyil. Ancaq yaxşılıq Allaha, axirət gününə, mələklərə, Kitablara və peyğəmbərlərə iman edən; mala olan sevgisinə baxmayaraq, onu yaxınlarına, yetimlərə, yoxsullara, yolda qalmışa, istəyib dilənənə və kölələrə (azadlıqları üçün) verən; namazı doğru olaraq qılan, zəkatı verən və əhdləşdiklərində əhdlərinə vəfa göstərənlər ilə çətində, xəstəlikdə və döyüşün qızışdığı zamanlarda səbr edənlər(in tutum və davranışlarıdır). Bunlar, doğru olanlardır və müttəqi olanlar da bunlardır. (Bəqərə,177)

Qurana görə ürəyi təmiz olan insan, Allaha iman edən, Allahın əmr və qadağalarına lazımınca əməl edən, ONA təslim olan insandır. Buna görə, ürəyi təmiz olan insan, davamlı Allahı anan və ürəyi Allahın zikriylə "mutmain" olmuş (aram tapmış) adamdır. Belə ki, Quranda möminlər belə təsvir edilir:

"Bunlar, iman edənlər və ürəkləri Allahın zikriylə mutmain olanlardır. Xəbəriniz olsun; ürəklər yalnız Allahın zikriylə mutmain olar" (Rəd, 28). Bir başqa ayədə isə möminlərdən belə danışılır: "Onlar ki, Allah xatırlandığı zaman ürəkləri ürpərər;" (Hac, 35). Yenə bir başqa ayədə, möminlərin ürəklərinin "Allahın və haqqdan enmiş olanın zikri üçün hörmət və qorxu ilə yumşaldığı" (Hədid Surəsi, 16) xəbər verilir.

Bu səbəbdən ürək təmizliyi, insanı Allahdan uzaqlaşdıran bütün manеələrin ürəkdən təmizlənmiş olması mənasını verir. Belə bir insan dünya ehtirasından, eqoizmdən, qorxudan, etibarsızlıqdan uzaq olar.

Allahdan başqa varlıqlara bağlanmaqdan, onlara Allahdan müstəqil bir sevgi duymaqdan xilas olar. Qısacası, Allaha itaət etməyən və müsəlmanlığın gərəkli əməlləri yerinə yetirməyən insan üçün "ürək təmizliyi"ndən söz edilə bilməz. "Mənim ürəyim təmizdir, dinə uyğun gəlməsəm də olar" deyənlər, Allahı və möminləri aldatdıqlarını zənn edə bilərlər, halbuki yalnız özlərini aldatmaqdadırlar. Bu ifadə ancaq, ibadətlərini tətbiq etməkdən qaçan və səhv bir həyat tərzini müsəlmanlıq olaraq göstərməyə çalışan insanın səmimiyyətsizliyidir.

İman ürəkdədir. Ancaq ürəkdəki imanın göstəricisi ruhi və praktik həyatdır. Bunun üçün ibadət və əxlaq şərtdir. Yoxsa insanın müsəlman olub, olmadığı bilinməz.

Ürəyilə iman edən ibadətləri də yerinə yetirməlidir, yoxsa bu, o şəxsin imanında problem var deməkdir.

Bir də ki, ibadət etməyən insanın ürəyinin təmizliyini Allah bilər. Ürəyim təmizdir deməklə, ürək təmiz olmaz. Ürək Allahın hər vaxt baxdığı və dəyər verdiyi yerdir. İnsan hər gün ibadətlərini yerinə yetirməmək surətilə Allaha üsyan edirsə, Allah o ürəyə yaxşı nəzərlə baxmaz, Onun yaxşı nəzərlə baxmadığı ürək də təmiz olmaz.

İbadət imanı qüvvətləndirir. İbadətsiz iman, zamanla zəifləyər və yox olar. İmanın zəif, ya da yox olduğu ürək isə təmiz deyil. Bunu iddia edən insan, yalnız özünü aldadır. İbadətdən başqa təfəkkür də lazımlıdır. Ürək təmizliyi imanın yanında, ibadət və təfəkkürlə birlikdə olar.

Son olaraq mənim ürəyim təmizdir deyənlərdən soruşuruq: "sənin ürəyin Peyğəmbərimiz (s.ə.s)-dən dahamı təmizdir ki, o ayağı şişənə qədər namaz qılırdı?"

Hz. Yusif (ə.s), Yusuf surəsində "mən nəfsimi təmizə çıxara bilmərəm" deyir. Bu Peyğəmbər vəhyə həmsöhbət olmuş, Allah qatında uca bir mövqedə olan biri belə söyləyirsə, "mənim ürəyim təmizdir" demək nə böyük bir cürətdir?

**Yaradılış məqsədimiz olan "Mənə qul olsunlar deyə yaratdım" sözünə çatmaq üçün ibadətlərin yerinə yetirilməsi şərtdir.**

Hacı BƏKİROĞLU

## POLİSƏ ETİBAR EDƏNLƏRİN SAYI 50%-DƏK AZALIB



Gürcüstanda polisə etibar edənlərin sayı 50%-dək azalıb. Bu Gürcüstanda 2004-cü ildən sonra ən aşağı göstəricidir. 2004-cü ildə bu göstərici 49% təşkil edirdi.

Beynəlxalq Respublikaçılar İnstitutunun keçirdiyi ictimai rəy sorğusunun nəticələri məhz belə olub. Tədqiqat martın sonu, aprelin əvvəlində aparılıb.

Qeyd etmək lazımdır ki, Gürcüstanda polisin reytinqi 2009-cu ilin oktyabrından 2004-cü ildə daxil olmaqla 80%-dən aşağı düşməyib, lakin 2015-ci ildə bu reytinq göstəricisi 65%-ədək düşüb.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

30 aprel 2016-cı il
№008 (22)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## OKSFORD KİTABXANASINDA İLYA ÇAVÇAVADZENİN MƏKTUBU AŞKAR OLUNUB



Oksford kitabxanasında görkəmli gürcü şairi və ictimai xadimi İlya Çavçavadzenin məktubu tapılıb. Bu barədə məlumatı Facebook-da İrma Şiolaşvili yayıb. Məktubun fotoşəklini yayan Şiolaşvili sevincini belə bölüb:

“Ey insanlar, bir neçə dəqiqə əvvəl mənim üzərimə böyük sevinc töküldü. Gürcüstanı sevən, Oksfordda gürcü dilini öyrənən bir alman gənci – İonas Lyufler Oksford kitabxanasında əldə etdiyi İlya Çavçavadzenin naməlum qadına (güman ki, Marcori Uordropa) ünvanlanmış 20 may tarixli şəxsi məktubunun şəklini telefona çəkərək, mənə göndərib”.

Məktubda deyilir: “Hörmətli xanım!

Sabah, daha doğrusu mayın 21-də mən vədələşdiyimiz vaxtda böyük məmuniyyətlə sizə səhər yeməyinə gələcəm. Çox təəssüf edirəm ki, knyaginiya Olqa Sizə gələ bilməyəcək, çünki o, bir az xəstələnib. Böyük hörmətlə İlya Çavçavadze”.

Şair, publisist, Gürcüstanın müstəqilliyi uğrunda mübarizə aparan İlya Çavçavadze XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərində Gürcüstanın ən fərqlənən milli ictimai xadimlərindən biri olub. 1987-ci ildə Gürcü pravoslav kilsəsi tərəfindən Mömin İlya adı ilə övliyalar sırasına daxil edilib.

## HƏMKARLARIMIZ “GÜRCÜSTANIN ƏMƏKDAR JURNALİSTİ” ADINA LAYİQ GÖRÜLDÜLƏR





“Gürcüstan” qəzetinin əməkdaşları – Şahvələd Əli oğlu Eyvazov və Binnət Əli oğlu Məmmədov Gürcüstanda Azərbaycandilli mətbuatda çoxillik fəaliyyətlərinə görə “Gürcüstanın Əməkdar jurnalisti” adına layiq görülüblər.

Hər iki həmkarımız uzun illərdir ki, Gürcüstanda Azərbaycandilli mətbaut sahəsində çalışır.

Şahvələd Eyvazovun da, Binnət Əlioğlunun da bu il 60 yaşı tamam olub. Şahvələd Eyvazov müxtəlif səpkili sərgilərin qalibi və laureatı adına layiq görülüb. O, 24 ildir ki, “Assoşeyted Press” informasiya agentliyinin Tbilisidə yerləşən Qafqaz bürosunun fotomüxbiridir. Onun Cənubi Osetiya, Abxaziya, Dağlıq Qarabağ, Çeçenistan münaqişələrindən çəkdiyi kadrlar dünyanın nüfuzlu qəzet və jurnallarında dərc olunub.

Binnət Əli oğlu “Gürcüstan” qəzetində çalışmaqla yanaşı, “Regionpress” qəzetinin də redaktorudur. Publisistik yazıları ilə dövrü mətbuatda müntəzəm çıxış edir. B. Məmmədov 1991-ci ildən Gürcüstan Jurnalistlər Federasiyasının üzvüdür. O, Gürcüstan prezidentinin “Təşəkkürnamə”sinə layiq görülüb. “Salam, dünyanın dərdi” poetik toplusunun və publisistik məqalələr kitabının müəllifidir.

“Yeni Yol” olaraq, biz də həmkarlarımızı bu uğur münasibətilə təbrik edir, onlara yeni yaradıcılıq uğurları diləyirik.

## QADIN FUTBOLU ÜZRƏ ÖLKƏ ÇEMPİONATINA START VERİLDİ

26 aprel 2016-cı il tarixində Gürcüstanda qadınlar arasında futbol üzrə birinci çempionata start verilib. Açılış oyunu Qoridə Xaşurinin “İveriya” və Tbilisinin “35-ci məktəb” komandaları arasında keçirilən görüşlə başlayıb. Görüş Xaşuri qadın futbolçularının 3:2 hesablı qələbəsi ilə başa çatıb.

Oyundan əvvəl çempionatın təntənəli açılış mərasimi olub. Mərasimdə Gürcüstan Futbol Federasiyasının və Qadın Futbol Federasiyasının nümayəndələri iştirak ediblər.

Həmin gün daha iki görüş keçirilib. Kutaisinin “Martve” komandası “Açara”nı qəbul edib. Oyun kutaisili qızların 10:2 hesablı böyük qələbəsi ilə nəticələnib. Digər qarşılaşmada isə “Lan-




çuxeti” komandası “Ereti” üzərində 3:0 hesabı ilə inamlı qələbə qazanıb.

Qadınlar arasında futbol üzrə birinci Gürcüstan çempionatında altı komanda iştirak edir. Turnir iki mərhələdə keçiriləcək. Birinciliyin qalibi bu il oktyabrın 28-də müəyyənləşəcək.

## XANƏHMƏD QƏRİBOVA VİDA SÖZÜ



Qarayazı elinə böyük itki üz verib. Həmişə məsul vəzifələrdə çalışmasına şahidlik etdiyimiz, xeyirdə-şərdə el-oba ilə birlikdə olduğunu gördüyümüz, böyüklə böyük, kiçiklə kiçik olmağı həyatının hər anında sübut etdiyinə dəfələrlə tanış olduğumuz Xanəhməd Qəribov 20 aprel 2016-cı ildə vəfat edib.

Xanəhməd müəllim təkcə doğulduğu Təhlə elinin deyil, bütün Qarayazının oğulu olmağı bacarmışdı. Xanəhməd müəllim sözünü deyə biləcək qədər ötkəm insan idi. Sözünü deyə bildiyi qədər də, başqalarının sözünü dinləmək, başqalarının sevincinə, dərdinəsərinə qulaq asmaq, şərik olmaq kimi insani keyfiyyətlərə malik müstəsna bir eloğlu idi. Onun ömür yolunu əks etdirən rəqəmlər Xanəhməd müəllimin enerjisindən, bacarığından xəbər verir.

Qəribov Xanəhməd 1956-cı il aprelin 5-də Qardabani rayonundakı Qaratəhlə kəndində anadan olmuşdur.

1979-cu ildə Azərbaycan Xalq Təsərrüfatı institunu bitirmişdir.

1979-cu ilin sentyabr ayından 1986-cı ilə qədər Qardabani rayon komsomol komitəsində ilk komsomol komitəsinin katibi, təlimatçı vəzifələrində çalışmışdır.

1986-cı ildən 1988-ci ilə qədər Bakı Ali Partiya məktəbinin dinləyicisi olmuşdur.

1988-ci ildən 1991-ci ilə qədər Qardabani rayon partiya komitəsində və sonra Ağtəhlə kənd sovetinin sədri vəzifəsində işləmişdir.

1991-ci ildən Qadabani rayon idarə heyətində iqtisadçı, mütəxəssis,baş mütəxəssis, yerli idarəetmə orqanları ilə işlər idarəsinin rəis müvini, rəisi olmuşdur.

Daha sonra Qardabani rayon icra hakimiyyətinin sədr müavini vəzifələrində calışmışdır.

İşlədiyi müddətdə dəfələrlə rayon sovetinə deputat və rayon bələdiyyəsinə üzv seçilmişdir.

Çox sayda mükafatlara layiq görülmüşdür, o cümlədən xidmətlərinə görə Gürcüstanın "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur.

Xanəhməd müəllimin həyatını əks etdirən bu illərin arxasında onun zəhmətkeşliyi, insanlarla işləmək, dil tapmaq bacarığı, təşkilatçılıq qabiliyyəti dururdu. Bütün bu keyfiyyətlər isə onun ziyalılığından irəli gəlirdi.

Allah rəhmət eləsin!

## HOLLANDLAR PLASTİK KÜTLƏDƏN “ƏBƏDİ” YOLLAR SALMAĞI PLANLAŞDIRIRLAR




Hollandiyanın KWS Infra yol tikinti şirkəti və VolkerWessels şirkətinin mütəxəssisləri yaxın vaxtlarda plastic kütlədən ilk avtomobil yolunun çəkilməsinə hazırlaşırlar. İstifadə olunmuş sintetik materialdan olan yollar başlanğıc üçün Rotterdamda salınacaq. Şəhər hakimiyyəti artıq layihənin gerçəkləşdirilməsinə razılıq verib. Layihə müəllifləri indi işlərin həyata keçirilməsi üçün tərəfdaşlar axtarırlar.

“Əbədi yol” layihəsinin yaradıcıları bildiriblər ki, plastik kütlədən olan örtüklər ənənəvi örtüklərin malik olduğu çatışmazlıqlara sahib deyil, hətta ən müasir asfaltlara nisbətən sürtülməyə və temperatur dəyişikliklərinə daha çox davamlıdır. Yeni avtomobil yolları okeanları orada toplanmış çox sayda zibildən təmizləməyə kömək edəcək. Belə ki, yol tikintisi üçün lazım olan plastik kütlə məhz dünya okeanlarından yığılmış tullantılardan hazırlanacaq.

Ənənəvi texnologiyadan fərqli olaraq bu yollar qısa müddətdə – bir neçə həftə ərzində quraşdırılacaq. Yüngül və etibarlı plastik kütlədən hazırlanan konstruksiyalar hamarlanmış qumun üzərinə yerləşdiriləcək. Bu yolların kənarlarında rabitə üçün xüsusi xəndəklər qazılmasına ehtiyac qalmayacaq. Bu isə həm vaxta, həm də xərcə qənaət etməyə imkan verəcək. Bu konstruksiyaların içi boş olacaq. Bu isə kabellərin və hətta su kəmərinin çəkilməsinə imkan verəcək. Yeni növ yol örtüyü -40 dərəcədən +80 dərəcə temperaturadək davam gətirə biləcək. Kimyəvi reaktivlərə qarşı davamlı olan bu yollara demək olar ki, texniki xidmət lazım gəlməyəcək.

Təsisçi:
*“Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı”*

**Redaktor:**
**Afiq Muxtaroğlu**
**Yayım Direktoru:**
**Hacı Bəkiroğlu**

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.